1_Layout 1  12.07.2025  10:28  Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR


№ 13 (701)

15 iyul 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# XANKƏNDİDƏN DÜNYAYA

## Qlobal tədbirlərin keçirildiyi unikal ünvana çevrilən Qarabağdan sülh və əməkdaşlıq mesajları verilir

**"Azərbaycan" qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu "Xankəndidən dünyaya" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**




Bu il Azərbaycan xalqı ərazilərimizin bütövlüyünün təsvirəgəlməz qürur hissi ilə "Konstitusiya və Suverenlik İli"ni qeyd edir. Cəmi beş ilə yaxın müddət ərzində əzəli sakinlərinə qovuşdurulan Qarabağ və Şərqi Zəngəzur dirçəliş günlərini, quruculuq, qayıdış zəfərlərini yaşayır. Düz üç onillik boyu ölkəmizin müstəqilliyini hədəf alan separatçıların, təcavüzkarların məkrli yuvasına çevrilən Qarabağ və Şərqi Zəngəzur indi yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin, forumların, konfransların keçirildiyi unikal məkan kimi dünyanın diqqətini üzərinə çəkir.

Bu il iyulun 3-4-də Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü ilə əlaqədar üzv ölkələrin dövlət və hökumət başçılarının Qarabağa səfər etmələri də bir daha göstərdi ki, bu torpaqlar artıq mötəbər beynəlxalq tədbirlərin keçirildiyi qlobal platformaya çevrilib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin, İran Prezidenti Məsud Pezeşkianın, Qırğızıstan Prezidenti Sadır Caparovun, Tacikistan Prezidenti Emoməli Rəhmonun iştirak etdiyi tarixi Zirvə görüşündə Prezident İlham Əliyev söylədi ki, bugünkü Zirvə görüşünün Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası var: "Ermənistan işğalından azad edilmiş torpaqlarımızda artıq bir neçə mühüm beynəlxalq tədbir keçirilmişdir. 2023-cü ildə Şuşada ECO-nun Nazirlər Şurasının iclasını, 2024-cü ildə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünü və bu ilin may ayında Laçında Azərbaycan, Türkiyə və Pakistan rəhbərlərinin üçtərəfli Zirvə görüşünü qeyd etmək istərdim".

### Beynəlxalq tədbirlərin baş ünvanı

Hazırda dünyanın dörd bir yanında, o cümlədən sərhədlərimizin bir addımlığında qanlı toqquşmalar, müharibələr gedir. Dünyanın bu qarmaqarışıq dövründə dövlətimiz tərəfindən həyata keçirilən düşünülmüş və uzaqgörən siyasət sayəsində Azərbaycanda sabitlik, inkişaf və sülh mühiti formalaşdırılıb, ölkəmiz sözün əsl mənasında təhlükəsizlik adasına çevrilib. Azərbaycanın Qarabağ zəfəri ölkəmizin dünyadakı nüfuzunu, gücünü birə min artırıb, regiondakı lider mövqeyini sarsılmaz edib. İstənilən sahədə - iqtisadi, sosial, hərbi sahələrdə sürətli inkişaf əldə edən, dünyanın enerji, nəqliyyat qovşağına çevrilən ölkəmizin qlobal miqyaslı problemlərin həll edildiyi platformaya çevrilməsi, sivilizasiyalararası dialoqların aparıldığı ünvan kimi adından söz etdirməsi də təsadüfi deyil. Vətən müharibəsinə qədərki dövrdə biz adətən beynəlxalq əhəmiyyətli konfransların, forumların Bakıda keçirilməsinə şahidlik etmişdik. Lakin Şuşa zəfərindən sonra bu cür tədbirlərin paytaxtımızla yanaşı, Qarabağ və Şərqi Zəngəzurda da keçirilməsi ənənə halını alıb. Dünyanın dörd bir yanından gələn ali qonaqlar işğaldan azad edilən torpaqlarda toplaşaraq beynəlxalq aləmi narahat edən məsələləri, bəşəriyyətin gələcək çağırışlarını müzakirə edirlər.

Prezident İlham Əliyev işğaldan azad edilən ərazilərimizdə görülən işləri şəxsən nəzarətində saxlayır, mütəmadi olaraq həmin yerlərə səfərlər edərək yeni bünövrələr qoyur, açılışlar edir.

Qarabağ və Şərqi Zəngəzurda beynəlxalq miqyaslı tədbirlərin keçirilməsinin mütəmadi hal alması da elə görülən kompleks işlərin, yaradılan hər cür şəraitin nəticəsində mümkün olur.

### Zəfər ünvanımızın şan-şöhrətli çağları

2021-ci ilin mayında qələbəmizin rəmzi Şuşada keçirilən və bu torpaqların mədəni ruhunun da özünə qaytarıldığının rəmzi sayılan "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı Qarabağ və Şərqi Zəngəzurda baş tutan tədbirlərin ilki, qaranquşu oldu.

Ötən beş il ərzində mədəniyyət paytaxtımızda çoxsaylı mühüm beynəlxalq tədbir, festival, forum və konfrans keçirilib.

### Laçın Zirvəsi

Bu il 28 May - Müstəqillik Günündə strateji baxımdan mühüm əhəmiyyət kəsb edən və açılışı Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən həyata keçirilən Laçın Beynəlxalq Hava Limanı ümumilikdə Qarabağ və Şərqi Zəngəzurun iqtisadi dirçəlişini nümayiş etdirdi.

Həmçinin qardaş ölkələrin - Azərbaycan, Türkiyə və Pakistanın liderlərinin ölkəmizin Müstəqillik Günündə Şərqi Zəngəzurun bu dağlar qoynundakı şəhərində Prezident İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərifin Zirvə görüşü keçirmələri dünyaya üç qardaş ölkə - Azərbaycan, Türkiyə və Pakistanın sarsılmaz birliyini göstərdi.

Zirvə görüşündə Prezident İlham Əliyev söylədi ki, ölkələrimizin strateji mövqeyindən və dinamik iqtisadi potensialımızdan istifadə etməklə qarşılıqlı faydalar əldə etmək üçün geniş imkanlar var: "Siyasət, iqtisadiyyat, energetika, qarşılıqlı investisiyalar, nəqliyyat, müdafiə, kənd təsərrüfatı, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın birgə layihələr və proqramlar vasitəsilə daha böyük sürətlə inkişaf edəcəyinə inanırıq".

MDB Humanitar Əməkdaşlıq Şurasının 8 oktyabr 2024-cü il tarixli qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan olunub.

Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsi işğaldan azad edilən torpaqlarımızın mədəni ruhunun özünə qaytarılmasını əks etdirməklə yanaşı, Azərbaycanın Vətən savaşında qazandığı tarixi qələbəsinin, suverenliyinin təmininin MDB məkanında, ümumiyyətlə dünyada qəbul olunmasının və dəstəklənməsinin növbəti nümunəsidir.

### Xankəndiyə xoş gəlmisiniz

"İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak etmək üçün qədim Azərbaycan torpağı olan Qarabağa, Xankəndiyə xoş gəlmisiniz".

İyulun 4-də Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü zamanı dövlət və hökumət başçılarını, tədbir iştirakçılarını Qarabağ torpağında bu sözlərlə salamladı. Bununla bir daha qalib lider İlham Əliyev Azərbaycanın tarixə, haqqa, ədalətə dayanan qətiyyətli zəfərinin yaratdığı gerçəklikləri dünyaya bəyan etdi.

Bu il ECO-nun 17-ci sammitinə Azərbaycanın evsahibliyi etməsi özlüyündə mühüm əhəmiyyət kəsb edir və bu, ölkəmizin təşkilatın fəaliyyətində böyük rolu olduğunu göstərir. Bu mötəbər tədbirin məhz işğaldan azad edilən Qarabağ torpağında - Xankəndidə keçirilməsi və tədbirdə ECO-ya üzv ölkələrin dövlət və hökumət başçılarının iştirakı həm də ərazi bütövlüyümüzə göstərilən ciddi dəstək kimi xarakterizə olunmalıdır. Azadlığından sonra ilk dəfədir ki, Xankəndidə bu cür yüksəksəviyyəli beynəlxalq tədbir keçirilir. Türkiyə, Pakistan, Özbəkistan, İran, Qırğızıstan, Tacikistan liderlərinin və digər üzv ölkələrin hökumət nümayəndələrinin iştirak etdiyi mötəbər tədbirdə bir daha Azərbaycanla həmrəylik nümayiş olundu.

ECO-nun Zirvə görüşü çərçivəsində Ağdamda İqtisadi Əməkdaşlıq Təşkilatının Gənclər Forumu, Laçında ECO Qadınlar Forumu da keçirildi ki, bütün bu tədbirlərlə əlaqədar Qarabağa və Şərqi Zəngəzura səfər edən əcnəbi iştirakçılar, eyni zamanda təşkilata üzv ölkələrin dövlət və hökumət başçıları işğal dövründə Ermənistan tərəfindən burada törədilən vandalizm aktlarını gözləri ilə gördülər. Həmçinin onlar Azərbaycan dövlətinin qısa vaxt ərzində bu yerlərdə həyata keçirdiyi mühüm quruculuq işlərinin şahidi oldular.

Eyni zamanda bu mühüm tədbir göstərdi ki, Qarabağ və Şərqi Zəngəzur yalnız Azərbaycanın deyil, regionun, türk və islam aləminin, ümumilikdə dünyanın siyasi, iqtisadi, mədəni və diplomatik ünvanına çevrilməkdədir.

# VƏTƏNƏ, XALQA XİDMƏTİN TƏNTƏNƏSİ





Azərbaycan Polisinin yaranmasının 107-ci ildönümü münasibətilə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və nazirliyin rəhbər heyəti Fəxri xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin abidə kompleksi önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad edilib.

Respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı da ziyarət olunub.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında "Polis Günü"nə və 2024-2025-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, habelə respublikamızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış və xidməti vəzifələri yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi yad olunub.

Sonra peşə bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov ötən 107 ildə polisin keçdiyi şərəfli və zəngin xidmət yolundan, yaratdığı dəyərli ənənələrdən, xüsusən Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, milli ruhlu vətənpərvər kadrlarla möhkəmlənməsi sahəsində görülən mühüm işlərdən danışıb.

*Davamı 2-ci səhifədə.*

# VƏTƏNƏ, XALQA XİDMƏTİN TƏNTƏNƏSİ

*Əvvəli 1-ci səhifədə.*

O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Daxili İşlər Nazirliyində güclü və müasir maddi-texniki baza yaradıldığını, zamanın çağırışlarından irəli gələn struktur dəyişiklikləri aparıldığını, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi, peşə hazırlığının artırılması sahəsində sistemli tədbirlərin həyata keçirildiyini və əməliyyat-xidməti fəaliyyətin vətəndaş məmnunluğunun təmini prinsipləri üzərində qurulması ilə bağlı həyata keçirilmiş tədbirləri vurğulayıb.




Cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında önəmli xidmətləri ilə seçilən polis orqanlarının hər bir şəxsin qanuni mənafeyini, hüquq və azadlığının müdafiəsini yüksək səviyyədə təmin etdiyini qeyd edib.






Xidməti vəzifələrin dəqiq və qüsursuz yerinə yetirilməsində dürüstlük, prinsipiallıq və məsuliyyət kimi keyfiyyətlərin böyük önəm kəsb etdiyi, cinayətlərin açılmasının yüksək səviyyədə saxlanılmasının, hüquqpozmaların profilaktikasının daha da yaxşılaşdırılmasının, orqan və hissələrin mürəkkəb şəraitdə xidmət aparmaq bacarıqlarının artırılmasının, bütövlükdə xalqa xidmət funksiyalarının daha təkmil icrası üçün əlavə tədbirlərin həyata keçirilməsinin başlıca vəzifələr olduğu şəxsi heyətin diqqətinə çatdırılıb.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında möhtəşəm qələbəmizlə nəticələnmiş Vətən müharibəsindən sonra regionda yeni reallıqların yarandığı vurğulanaraq işğaldan azad edilmiş ərazilərdə "Böyük Qayıdış"ın gerçəkləşməsi üçün polis orqanlarının, o cümlədən Daxili Qoşunların fəaliyyətinin mövcud vəziyyətə uyğunlaşdırıldığı, asayişin və təhlükəsizliyin etibarlı təmin edildiyi, xidmətin böyük əzm və peşəkarlıqla davam etdirildiyi qeyd olunub.

Xidməti vəzifələrin icrasında daxili işlər orqanlarına hər zaman yardımçı olan, polisin peşə bayramının sevincini bölüşən vətəndaşlara, daxili işlər orqanlarının veteranlarına, dövlət qurumlarının rəhbərlərinə və əməkdaşlarına, qeyri-hökumət təşkilatlarına və media nümayəndələrinə təşəkkür ifadə olunub.

Qazanılan uğurlarda Azərbaycan polisinin müasir dünyagörüşlü yeni nəslini Vətənə, dövlətə, xalqa sevgi və xidmət ruhunda yetişdirən Polis Akademiyasının rolunu xüsusi qeyd edən daxili işlər naziri məzunları təhsili başa vurmaları münasibətilə təbrik edib, eləcə də bu təhsil müəssisəsini "baş leytenant" rütbəsi ilə bitirmiş məzunlara fərqlənmə diplomlarını təqdim edib.




General-polkovnik V.Eyvazov təntənəli mərasimin iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, öz andına həmişə sadiq olan daxili işlər orqanları bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcək, bu yolda qüvvə və bacarığını əsirgəməyəcək.

Təntənəli tədbir şəxsi heyətin mətin addımlarla tribuna qarşısından keçidi ilə yekunlaşıb.

**DİN-in Mətbuat xidməti**

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ 6 AYIN YEKUNLARI MÜZAKİRƏ OLUNUB



İyulun 10-da Daxili İşlər Nazirliyində 2025-ci ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov cari ilin birinci yarısında cinayətkarlıqla mübarizədə müsbət nəticələrin əldə edildiyini, kütləvi tədbirlərdə asayişin və təhlükəsizliyin peşəkarlıqla təmin olunduğunu, eyni zamanda qarşıda mühüm vəzifələrin durduğunu və onların ətraflı müzakirəsinin, xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün əlavə təşkilati tədbirlərin müəyyən edilib həyata keçirilməsinin vacibliyini nəzərə çatdırıb.

İclasda hesabat məruzəsi və məruzəətrafı çıxışlar dinlənilib.

Qeyd olunub ki, ötən 6 ayda əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 17049 cinayət qeydə alınıb, onların 94,4 faizi daxili işlər və prokurorluq orqanları tərəfindən prosessual qaydada araşdırılan hüquqazidd əməllər olub. 2024-cü ilin analoji dövrü ilə müqayisədə ağır və xüsusilə ağır cinayətlər 18,9, odlu silahın tətbiqi ilə törədilənlər 2 dəfə, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilənlər 19,8, qrup halında baş verənlər 18,8, məişət zəminində törədilənlər 5,5, qəsdən adam öldürmələr 39,1, mülkiyyət əleyhinə olanlar 4,2, o cümlədən oğurluqlar 6,2, dələduzluqlar 7,3 faiz azalıb.



Həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat tədbirləri ilə cinayətlərin 92,8 faizi, o cümlədən prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 232, görülmüş operativ cavab tədbirləri ilə 2196 cinayət açılıb, 4344 hüquqazidd əməlin qarşısı alınıb, axtarışda olan təqsirləndirilən şəxslərin 79,7 faizi tutulub, 3378 ədəd müxtəlif növ atıcı silah yığılıb və tapılıb.

Baş Prokurorluq və Daxili İşlər Nazirliyi tərəfindən əvvəlki illərdən bağlı qalmış cinayətlərin açılması ilə bağlı yaradılmış birgə işçi qrupun istintaq və əməliyyat-axtarış tədbirlərinin müsbət nəticələr verdiyini vurğulayan nazir vətəndaşların qanuni mənafelərinin qorunmasına və qanunçuluğun möhkəmlənməsinə xidmət etdiyini, o cümlədən cinayətlərin, onların ağır və xüsusilə ağır növlərinin azaldığını, açılması və istintaqı sahəsində əhəmiyyətli irəliləyişlərin əldə olunduğunu diqqətə çatdırıb.

Mütəşəkkil cinayətkarlıqla mübarizə tədbirləri çərçivəsində 305, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş 103 kriminal qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 82 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Qeyri-leqal dövriyyədən 2 ton 958 kiloqram narkotik vasitə çıxarılıb və 151 tondan artıq narkotik xassəli bitki aşkarlanaraq məhv edilib.

Həmçinin vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu vurğulayaraq cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması işinin xüsusi nəzarətdə olduğu, bu baxımdan mediada qabaqcadan məlumat verilməklə 4032 şəxsin qəbul edildiyi və qaldırılan məsələlərin əksəriyyətinin öz qanuni həllini tapdığı vurğulanıb.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların hesabat dövründə bütövlükdə layiqincə yerinə yetirildiyini qeyd edib, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunan müsbət nəticələrin inkişaf etdirilməsi üçün fəaliyyətin effektivliyinin artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

**DİN-in Mətbuat xidməti**

# HƏRBİ PROKUROR NAXÇIVANDA GÖRÜŞ KEÇİRİB



Azərbaycan Respublikası baş prokurorunun müavini - hərbi prokuror ədliyyə polkovniki Bəhruz Əhmədov daxili qoşunlar komandanının müavini-Şəxsi heyət üzrə İdarənin rəisi general-mayor İnqilab Muradovla birlikdə Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxslərinin və Daxili Qoşunların yüksəkrütbəli hərbi qulluqçularının iştirakı ilə Daxili Qoşunların Naxçıvanda qulluq edən hərbi qulluqçuları ilə görüşüblər.





Bu barədə AZƏRTAC-a Hərbi Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, keçirilən tədbirdən öncə Ümummilli Lider Heydər Əliyevin abidəsi və şəhidlərimizin şərəfinə yaradılmış guşə ziyarət edilib, əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb.

Görüşdə Dövlət Himni səsləndirilib, iştirakçılara Baş Prokurorluğun rəhbərliyinin tövsiyələri çatdırılıb.

Çıxışlarda dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi və xalqın əzmkarlığı ilə əldə olunan uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrin formalaşdırılmasından danışılıb.

Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olub, onları maraqlandıran suallar cavablandırılıb. Həmçinin hərbçilərin məişət və xidmət şəraiti, eləcə də qayğı və problemləri ilə bağlı fikirləri dinlənilib.

Sonda xidmətdə fərqlənən hərbi qulluqçulara hədiyyələr təqdim edilib.

**AZƏRTAC**

3_Layout 1 12.07.2025 10:29 Page 1



# DÖYÜŞ QABİLİYYƏTİNİN ARTIRILMASINDA SƏRRAST ATICILIĞIN MÜSTƏSNA ROLU



Daxili Qoşunların şəxsi heyətinin döyüş təlimində atəş hazırlığının yüksək səviyyədə saxlanılmasına ciddi önəm verilir. Atəş hazırlığı hərbi qulluqçuların xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində mühüm amildir.

Hərbi hissələrdə müvafiq qurğular və əyani tədris vasitələri ilə təchiz edilmiş atəş hazırlığı şəhərcikləri mövcuddur. Şəxsi heyətin nəzəri biliklərinin yüksəldilməsi və praktiki vərdişlərinin təkmilləşdirilməsi üçün hərbi hissələrin atəş hazırlığı şəhərciklərində mütəmadi olaraq atəş hazırlığı məşğələləri və atıcılıq məşqləri keçirilir.

Hər bir zabit, gizir, müddətdən artıq və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu özünün atəş hazırlığına şəxsən məsuliyyət daşımalı, verilən tapşırıqları yerinə yetirməyə daim hazır olmalıdır.

Daxili Qoşunların Baş İdarəsinin qərargahında əməliyyat və döyüş hazırlığı idarəsinin döyüş hazırlığı şöbəsinin rəisi polkovnik Aydın Zahidov atəş hazırlığının əhəmiyyətindən danışdı. O, Daxili Qoşunların struktur bölmələri ilə atəş hazırlığı üzrə məşğələlərin



müvafiq bölmələrin tədris proqramlarının, atıcılıq məşqi və atışların isə atıcı silahlardan "Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının atış kursu"nun, xüsusi silah və vasitələrdən "Daxili İşlər Orqanlarında və Daxili Qoşunlarda xüsusi qurğu və vasitələrdən atış kursu"nun, minaatan bölmələri ilə "Artilleriyanın hazırlıq və atış kursu"nun tələblərinə əsasən təşkil olunduğunu bildirdi.

Atəş hazırlığı döyüş hazırlığının tərkib hissəsi olaraq hərbçi peşəsinin vacib amillərindəndir. Hərbi qulluqçuların atəş hazırlığı üzrə nəzəri bilikləri müvafiq tədris proqramlarının tələbləri əsasında keçirilən məşğələlərdə aşılanır, praktiki vərdişlərin inkişaf etdirilməsi və atəş hazırlığının vəziyyətinin qiymətləndirilməsi isə yuxarıda qeyd olunan atış kursları, eləcə də "DİN Daxili Qoşunların döyüş hazırlığı üzrə normativlər toplusu"nun tələblərinə əsasən qiymətləndirilir. Praktiki məşğələlər zamanı şəxsi heyət tərəfindən təhlükəsizlik qaydalarına riayət edilməsi ciddi nəzarətdə saxlanılır. Atəş hazırlığının yüksəldilməsi hərbi qulluqçuların döyüş tapşırıqlarını daha dəqiq və çevik yerinə yetirmələrinə zəmin yaradır.

Döyüşdə uğur əldə etmək, qələbəni qazanmaq üçün şəxsi heyətin fiziki və mənəvi-psixoloji cəhətdən yüksək səviyyədə olması ilə bərabər sərrast atəş açmaq bacarığı da vacib şərtdir. Bu amil 44 gün davam edən Vətən müharibəsində hərbi zəfərin əldə olunmasında və antiterror əməliyyatlarında mühüm rol oynadı. Fiziki cəhətdən güclü, çevik olan hərbi qulluqçularımız döyüş meydanında müxtəlif silahlardan yüksək bacarıqla istifadə etməklə uğur qazandılar.

Torpaqlarımızın işğaldan azad edilməsində müasir silah və texnika ilə yanaşı, onları peşəkarlıqla idarə edə bilən hazırlıqlı hərbi qulluqçuların rolunu xüsusi vurğulamaq lazımdır. Hərbi qulluqçularımız hərtərəfli hazırlıqlı olmalarını Vətən müharibəsində döyüş tapşırıqlarını peşəkarcasına yerinə yetirməklə sübut etdilər.

Dövlətimizin suverenliyini və ərazi bütövlüyünü qorumaq hər bir Azərbaycan vətəndaşının borcudur. Hərbi qulluqçularımız qarşıya qoyulan istənilən tapşırığın yerinə yetirilməsinə hər zaman hazır olmalı və öz hazırlıqlarını yüksək səviyyədə saxlamalıdırlar.

**kapitan Şahin Cəfərzadə**

# "XÜSUSİ TƏYİNATLI DƏSTƏ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI İLƏ HƏR ZAMAN ÖNDƏ OLAN BÖLMƏDİR"

16073 saylı hərbi hissənin xüsusi təyinatlıları qarşıya qoyulmuş döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusi fədakarlıq göstərirlər. Onların hərtərəfli hazırlığı bunu deməyə əsas verir. Hərbi hissədə olarkən dəstənin şəxsi heyətinin nümunəvi xidmət apardığının bir daha şahidi olduq. Hərbi hissə komandiri polkovnik Ramil İsmayılov xüsusi təyinatlı dəstənin şəxsi heyətinin yüksək döyüş hazırlığı və əzmkar xidməti ilə hər zaman fərqləndiyini diqqətə çatdırdı.





Dəstə komandiri mayor Həmzə Salmanovun sözlərinə görə, dəstə hər an qarşıya çıxa biləcək qəfləti tapşırıqları uğurla yerinə yetirməyə qadirdir. Vəzifə borclarından irəli gələn tələblərdən danışan dəstə komandiri hava şəraitindən asılı olmayaraq, təlim-məşqlərin davamlı olaraq keçirildiyini bildirdi. Qeyd etdi ki, xüsusi təyinatlılar təlimlər zamanı qarşıya qoyulmuş tapşırıqları məsuliyyətlə icra edirlər.

Mayor H.Salmanov şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərini öyrənməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanı bacarıqla tətbiq etməsi, hərbi intizama şüurlu münasibət göstərməsi və sayıqlığını artırması, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirməsi üçün əlindən gələni əsirgəmir. Ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin və şücaətin nümayiş etdirilməsi, fəal və qətiyyətli fəaliyyətin göstərilməsi də xüsusi diqqət mərkəzində saxlanılır.



Şəxsi heyətin gündəlik fəaliyyəti daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir.

Xüsusi təyinatlı dəstənin tərkibində olan döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilməyi üçün müxtəlif ərazi relyefində və hava şəraitində məşğələlər keçirilir. Təlimin əsas mahiyyətinin verilmiş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi olduğunu deyən komandir qeyd etdi ki, praktiki məşğələlərin zamanı hərbi qulluqçulara xüsusi metod və vasitələr öyrədilir: "Cinayətkar dəstələrin zərərsizləşdirilməsi və tərksilah edilməsi üzrə praktiki fəaliyyətə üstünlük verilir. Təlim və məşğələlərin müvafiq plana əsasən müntəzəm olaraq



keçirilməsi yalnız bir məqsədə - hərbi qulluqçuların peşə vərdişlərinin, o cümlədən döyüş qabiliyyətlərinin daha da təkmilləşdirilməsinə xidmət edir. Deyərdim ki, xüsusi təyinatlı dəstə döyüş hazırlığı, xidməti fəaliyyəti ilə hər zaman öndə olan bölmədir".

Döyüş hazırlığının yüksəldilməsinə cavabdehlik daşıyan dəstə komandirinin müavini - qərargah rəisi mayor Həsənağa Əliyev funksional vəzifələrini məsuliyyətlə yerinə yetirir. Hərbi qulluqçuların dünyagörüşü, mənəvi-psixoloji hazırlıqlarının artırılmasında isə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Rəşad Abdullayevin fəaliyyəti təqdirəlayiqdir. Hər birimizə məlumdur ki, hərbi qulluqçuların döyüş hazırlığını şərtləndirən əsas cəhətlərdən biri də onların mənəvi-psixoloji durumudur. Belə ki, sözügedən sahədə vacib məsələ ictimai-siyasi hazırlıq məşğələsi və tərbiyə işinin təşkilində şəxsi heyətlə vətənpərvərlik mövzusunda söhbətlərin aparılmasıdır. Eyni zamanda tərbiyə işinin təşkili istiqamətində fərdi yanaşma prinsipinə üstünlük verən mayor R.Abdullayev hərbçilərin xidmətdə və xidmətdən sonrakı fəaliyyətini diqqətdə saxlayır. Onun fikrincə, tabelikdə olanlara qarşı tələbkarlıq və qayğının paralelliyi ilə yanaşı, hər bir hərbçinin psixoloji keyfiyyətlərinin dərindən öyrənilməsi üçün fərdi söhbətlərin aparılması çox önəmlidir.

Şəxsi heyət arasında nümunəvi xidmət edən hərbi qulluqçulardan kapitan Şahin Məh-



yəddinov, baş çavuşlar Tahir Əliyev, Tural İsmayılov, Kənan Əliyev və Hüseyn Heydərov üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirir, xidmət təcrübələrini hərbi qulluqçularla bölüşürlər.

**kapitan Nigar Ağayeva**

*Azərbaycan mətbuatı-150*

# "ƏKİNÇİ" QƏZETİNDƏN İNFORMASİYA ƏSRİNƏDƏK KEÇİLƏN UĞURLU YOL

150 il öncə - 1875-ci il iyulun 22-də milli mətbuatımızın ilk qəzeti olan "Əkinçi" işıq üzü görüb. Görkəmli ictimai xadim və ziyalı Həsən bəy Zərdabinin əzmkarlığı göstərərək çətinliklə ərsəyə gətirdiyi "Əkinçi"nin çap olunması xalqımızın həyatında mühüm hadisə olaraq tarixə yazılıb. Bu qəzetin nəşri milli mətbuatımızın təməlini qoyub və maarifləndirici missiyası baxımından böyük rol oynayıb.

Hər il iyulun 22-də Milli Mətbuat Gününü qürur hissi ilə qeyd edirik. Ona görə ki, zəngin mətbuat ənənələrinə malik dövlət və xalqların cərgəsində layiqli yer tuturuq. Milli mətbuatımız "Əkinçi" qəzetindən indiki informasiya əsrinədək uğurlu və təqdirəlayiq yol keçib. Onun inkişafı çoxmərhələli olub, müxtəlif tarixi dövrləri addayıb, fərqli ictimai-siyasi quruluş və ideologiyaların təsirləri ilə üzləşib. Ancaq mətbuatımız hər zaman milli ruhunu qoruyub, mənəvi dəyərlərimizə sadiq qalıb. Bununla da milli-mənəvi şüurun, dövlətçilik təfəkkürünün, mütərəqqi dünyagörüşünün formalaşdırılmasına dəyərli töhfələr verib.

Milli mətbuat tariximizdə iz qoyan "Kəşkül", "Kaspi", "Ziya", "Açıq söz", "İrşad", "Azərbaycan" qəzetləri, o cümlədən "Molla Nəsrəddin" və "Füyuzat" jurnallarında ictimai fikir üçün aktual olan mövzular işıqlandırılıb, öz dövrünün gerçəkliyi əksini tapıb, ziyalı sözü çatdırılıb.

Rusiya imperiyasında olduğu kimi, vaxtilə tərkibində yaşadığımız Sovet İttifaqında da siyasi, inzibati və ideoloji buxovlar üzündən azad milli mətbuatdan söhbət gedə bilməzdi. Ancaq həmin dövrlərdə ana dilimizdə mətbuatın mövcudluğu, ictimai münasibətlər sistemində, mədəni həyatda nüfuzlu yer tutması, milli özünüdərk prosesində vacib təbliğat-təşviqat müstəvisinə çevrilməsi olduqca əhəmiyyətli amillər idi.



Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra milli mətbuatımız da öz azadlığına qovuşub və dirçəliş mərhələsinə qədəm qoyub. Yeni qəzet və jurnallar çap olunmağa başlayıb, dünya mətbuatına inteqrasiya prosesi geniş vüsət alıb. Ölkəmizdə hərbi mətbuat da yaradılıb.

Ümummilli Lider Heydər Əliyevin xalqın çağırışı ilə hakimiyyətə qayıdışından sonra milli mətbuatımızın əsaslı inkişafı yönündə çoxsaxəli işlər görülüb. Belə ki, bu sahədə beynəlxalq standartlara uyğun qanunlar və digər normativ-hüquqi aktlar qüvvəyə minib, həmçinin mətbuat üzərində dövlət senzurası ləğv olunub, kütləvi informasiya vasitələrinin maddi-texniki bazası möhkəmləndirilib, ictimai əhəmiyyəti nəzərə alınaraq bir sıra jurnal və qəzetlərin dövlət büdcəsindən maliyyələşdirilməsi təmin edilib. Ulu Öndər mətbuatın fəaliyyətini həmişə xüsusi diqqət mərkəzində saxlayıb, jurnalistlərin əməyini öz çıxışlarında yüksək qiymətləndirib, onlara dəyərli tövsiyələrini söyləyib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ümummilli Liderin yolunu layiqincə davam etdirərək milli mətbuatımıza diqqət və qayğısını heç vaxt əsirgəməyib. Məhz dövlət başçısının təşəbbüsü ilə bu sahədə qanunvericilik təkmilləşdirilib, medianın inkişafına dövlət dəstəyi gücləndirilib. Möhtərəm Prezidentimizin müvafiq Fərmanına əsasən, Medianın İnkişafı Agentliyi yaradılaraq quruma dövrün tələblərinə uyğun səmərəli fəaliyyət göstərməsi üçün lazımi səlahiyyətlər verilib. Fərmanda qeyd olunub ki, Azərbaycanda cəmiyyətin hər bir sahəsini əhatə edən köklü islahatların həyata keçirildiyi, habelə bütün dünya üzrə vahid informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi, mütərəqqi texnologiyaların, iş metodlarının tətbiq olunduğu müasir dövrdə media sahəsində keyfiyyət dəyişikliklərinə ehtiyac var. Qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan mediamızın daha çox bəhrələnmə-




si vacib vəzifə kimi irəli sürülüb.

Ölkəmizin rəhbərinin böyük qayğısının təzahürü olaraq, jurnalistlərin sosial rifahlarının yüksəldilməsi məqsədilə onlar üçün dövlət vəsaiti hesabına çoxmənzilli binalar inşa edilib, bu peşə sahibləri fəxri ad və medallarla mükafatlandırılıblar.

2003-cü ildə keçirilmiş ölkə jurnalistlərinin I qurultayında respublikamızda medianın özünütənzimləmə orqanı kimi Mətbuat Şurası təsis olunub. Mətbuat Şurasının əsas məqsədi jurnalistlərin peşə fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, dövlət orqanları və ictimaiyyətlə mətbuat arasında əlaqənin, etimadın möhkəmləndirilməsindən ibarətdir.

Milli mətbuat müstəqil, döyüş meydanında şərəfli qələbə qazanan, sürətlə inkişaf edən, öz hədəflərinə doğru inamla addımlayan, beynəlxalq aləmdə tolerantlıq, sivilizasiyalararası dialoq ünvanı kimi tanınan ölkəmizin güzgüsüdür, o, Azərbaycan həqiqətləri haqqında ən etibarlı mənbədir. Xüsusi vurğulamaq lazımdır ki, mətbuatımız milli sərvətimizdir. Xalqımızın birliyi və ictimai həmrəylik baxımından mətbuatımızın müstəsna mövqeyi var. Müasir dünyanın reallıqlarını nəzərə alaraq informasiya savaşı cəbhəsində onun dayanıqlığı, çevikliyi, peşəkarlığı mühüm cəhətlər kimi aktuallaşır. İnamla qeyd etmək olar ki, mediamız zamanın çağırışları qarşısında öz missiyasını layiqincə yerinə yetirir.

Bu gün ənənəvi çap mətbuatının fəaliyyəti bütün dünyada olduğu kimi ölkəmizdə də informasiya texnologiyalarının inkişafı ilə əlaqədar davamlı şəkildə dəyişikliklərə uğrayır. İnternet resursları üzərindən yayımlanan media çevikliyi, geniş imkanları və asan əlçatanlığı sayəsində də cəmiyyətin daha geniş təbəqəsinin diqqətini cəlb etmək potensialına malikdir. Sosial şəbəkələr informasiya məkanında xüsusi yer tuturlar və ictimai rəyin formalaşdırılmasında onların rolu xeyli dərəcədə artıb. Artıq süni zəka media materiallarının hazırlanmasına öz töhfəsini verir. Bununla belə, ənənəvi çap mətbuatı etibarlı qorunaraq saxlanan arxivi, tarixi salnaməni elektron daşıyıcılardan daha dolğun əks etdirməsi, dövlət ideologiyası və mədəni irsinin təbliğatının əhəmiyyətli qollarından biri olması baxımından cəmiyyət üçün gərəkli, eləcə də əvəzolunmazdır.

Müstəqillik dövründə hərbi jurnalistika sahəsi də zəngin təcrübə toplayıb, ordu quruculuğu prosesində öz vəzifələrinin öhdəsindən bacarıqla gəlib. Respublikamızın ilk hərbi qəzetlərindən biri olan "Əsgər" fədakar yol keçib. Qəzet gənc nəslə döyüş ruhunun və vətənpərvərlik əqidəsinin aşılanması, Qarabağ müharibəsi tarixinin yazılması, şəhid və qazilərin cəmiyyətə geniş tanıdılması, şəxsi heyətin hərbi xidməti, təlim-tərbiyəsi ilə bağlı aktual məsələlərin işıqlandırılması istiqamətlərində öz dəst-xətti, maraqlı məzmun xüsusiyyətləri ilə fərqlənir.

Azərbaycan mətbuatının 150 illik yubileyi iftixar hissi doğuran bir məqamdır və uzunmüddətli tarixi prosesin önəmli zirvəsidir. Bu sahəyə ömrünü həsr etmiş, özündən sonra sanballı yaradıcı irs qoymuş və layiqli davamçılar yetişdirmiş, eləcə də peşə borcunu yerinə yetirərkən şəhadətə ucalmış cəfakeş jurnalistlərimizi ehtiramla anırıq.

Keçmişini unutmayan, bu günün nəbzini tutan və gələcəyə nikbinliklə nəzər salan milli mətbuatımıza öz məraminin həyata keçirilməsində yeni nailiyyətlər arzulayırıq.

**Yalçın Abbasov**

4_Layout 1 12.07.2025 10:11 Page 1



# HƏRBİ İNSTİTUTU YÜKSƏK NAİLİYYƏTLƏRLƏ BAŞA VURAN MƏZUNLAR






Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi İnstitutunda Vətənə, dövlətə xidməti hər şeydən üstün tutan, savadlı, bacarıqlı və seçdikləri peşəni ürəkdən sevən zabitlər hazırlanır. Tədris dövründə qazandıqları bilikləri təkmilləşdirən kursantlarımızın bəziləri Hərbi İnstitutu yüksək göstəricilərlə başa vururlar. Belə gənclərin sorağını eşitmək hər birimiz üçün sevindiricidir.

Qəzetimizin bu sayında təhsil aldığı müddətdə yüksək nəticələrə nail olduqlarına, hərbi xidmət vəzifələrini nümunəvi yerinə yetirdiklərinə, hərbi intizamın möhkəmləndirilməsində fəal iştirak etdiklərinə görə həvəsləndirmə qaydasında "baş leytenant" hərbi rütbəsinə layiq görülən dörd hərbi qulluqçu haqqında məlumat vermək istərdik.

Baş leytenant Şükran Əmiraslanov 2004-cü il iyulun 18-də Rusiya Federasiyasının Novosibirsk şəhərində anadan olub. 2010-2021-ci illərdə orta təhsilini Bakı şəhərində yerləşən N.Rəfiyev adına 104 saylı tam orta məktəbdə alıb. 2021-ci ildə Hərbi İnstituta qəbul olunub. "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası üzrə bütün imtahanları əla və yaxşı qiymətlərlə bitirən hərbi qulluqçumuz 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsinin götürmə qrupunun komandiri vəzifəsinə təyin olunub.

Zabit kadrlarının hazırlanmasında Hərbi İnstitutun xüsusi əhəmiyyət kəsb etdiyini deyən baş leytenant Ş.Əmiraslanov bildirdi ki, peşəkarlıq, təkmilləşmə, müasir dünyagörüşü mükəmməl tədrisə bağlıdır: "Yüksək səviyyəli biliyə, bacarığa malik zabitlərin yetişməsi üçün Daxili Qoşunların Hərbi İnstitutunda hər cür şərait yaradılıb. Təlim-tədrisin keyfiyyətli təşkili, kursantların bilik səviyyəsinin artırılması isə həm Daxili Qoşunların komandanlığı, həm də institutun rektorunun xüsusi diqqət mərkəzində olan məqamlardır".

Silahdaşının fikirlərinə dəstək olan baş leytenant Kamil İsmayılov Hərbi İnstitutda təhsilini uğurla başa vurduğuna və Daxili Qoşunların zabiti olduğuna görə qürurlandığını dedi. O, 2004-cü il avqustun 21-də Bakı şəhərində doğulub. 2021-ci ildə paytaxtda yerləşən N.Rəfiyev adına 104 saylı tam orta məktəbin 11-ci sinfini başa vurub. Elə həmin il Hərbi İnstituta daxil olub. 2025-ci ildə institutu "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası üzrə bitirib. 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsinin xüsusi vasitələrin tətbiqi qrupunun komandiri vəzifəsinə təyin olunub.

Ali hərbi təhsil müddətində məsuliyyətinə, intizamına görə fərqlənən üçüncü əlaçı hərbi qulluqçumuz baş leytenant Elgün Salmanov 2003-cü il oktyabrın 23-də Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olub. Orta təhsilini Bakı şəhərində yerləşən 83 saylı liseydə alan Elgün 2021-ci ildə oranı müvəffəqiyyətlə bitirərək Hərbi İnstituta qəbul olunub. 2025-ci ildə institutu "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası üzrə başa vurduqdan sonra 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsinin xüsusi vasitələrin tətbiqi qrupunun komandiri vəzifəsinə təyin edilib.

Bacarıqlı, məsuliyyətli komandir kimi yetişməyi qarşısına məqsəd qoyan baş leytenant E.Salmanov zabit ləyaqətini və şərəfini hər şeydən üstün tutur.

Məzunlar arasında fəallığına görə fərqlənən dördüncü əlaçı hərbi qulluqçumuz isə baş leytenant Çingiz Cəfərlidir. O, 2004-cü il noyabrın 11-də Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Xok kəndində anadan olub. Doğma kəndində yerləşən tam orta məktəbdə təhsil alaraq Çingiz 2021-ci ildə Hərbi İnstituta qəbul olunub. Cari ildə institutu "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası üzrə yüksək nəticələrlə bitirdikdən sonra 12565 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupu komandirinin müavini vəzifəsinə təyin edilib.

Hər bir gəncin Vətənə olan borcunu layiqincə yerinə yetirməsinin vacibliyini deyən zabitimiz bu yolda hər cür məhrumiyyətlərə mətanətlə sinə gərməyin lazımlı olduğunu xüsusi olaraq vurğuladı. Əlavə olaraq qeyd etdi ki, Hərbi İnstitutda təhsil aldığı müddət ərzində keçirilən məşğələlər, habelə təlimlər onların bilik və bacarıqlarının artırılmasında önəmli rol oynayıb.

Biz də, öz növbəmizdə, Hərbi İnstitutu bitirərək xidməti fəaliyyətdə ilk addımlarını atan zabitlərimizə uğurlar arzulayırıq.

**kapitan Şahin Cəfərzadə**

# YÜKSƏK İCRAÇILIĞI İLƏ SEÇİLƏN RADİOTELEFONÇU

17074 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər Ömər Velimetovdur. O, 2006-cı il avqustun 14-də Sumqayıt şəhərində anadan olub. Orta təhsilini 2012-2023-cü illərdə Sumqayıt şəhərində yerləşən 11 saylı tam orta məktəbdə alıb. 2025-ci ilin yanvar ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt Şəhər İdarəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədə xidmətə başlayıb. Sonra 25032 saylı hərbi hissənin kiçik mütəxəssis hazırlayan bölməsində rabitəçi ixtisasına yiyələnib. Müvafiq kursu bitirdikdən sonra 17074 saylı hərbi hissədə xidmətini davam etdirir. Hazırda təminat bölüyünün rabitə taqımının radiotelefonçusu vəzifəsindədir.



Əsgər Ö.Velimetov bildirdi ki, rabitə növbətçisi kimi xidmətə cəlb olunur və gündəlik hərbi hissənin bölmələri və xidmətaparma yerləri ilə rabitə əlaqəsi yoxlanılır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırılması təmin edilir.

Hərbi hissənin rabitə və AİS xidmətinin rəisi kapitan Musa Hümbətov nəzərimizə çatdırdı ki, əsgər Ö.Velimetov olduqca zəhmətkeş, yaşıdlarından fərqli olaraq daha düşüncəli və bacarıqlıdır. Xidməti-vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları ləyaqətlə yerinə yetirir, hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətini bu tələblərə uyğun təşkil edir. Əsgər yoldaşları arasında hörmət qazanan hərbi qulluqçu həm hərbi hissə komandanlığı, həm də bölük komandiri tərəfindən müsbət xarakterizə olunur.

**17074 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## *Sağlamlıq*

### İsti hava bəzi dərmanların təsirini artıra bilər

Yay aylarında artan temperatur yalnız narahatlıq yaratmır, həm də bəzi dərmanların bədəndə yaratdığı təsirləri dəyişərək sağlamlıq risklərini artırır. Mütəxəssislər xəbərdarlıq edirlər ki, xüsusilə antidepresan, antipsikotik, ürək dərmanları, stimulyatorlar və insulin istifadə edən şəxslər yayda daha ehtiyatlı olmalıdırlar.

AZƏRTAC "sciencealert.com" saytına istinadla xəbər verir ki, bədən öz temperaturunu əsasən tərləmə, qan dövranı və maye balansı vasitəsilə tənzimləyir. Lakin bəzi reseptli dərmanlar bu mexanizmlərə müdaxilə edir. Məsələn, antidepresanlar (SSRI və TCA) tərləməni azalda və ya artıra, antipsikotiklər isə bədənin istiliyi hiss etmə və ona reaksiya vermə qabiliyyətini zəiflədə bilər. Nəticədə bu dərmanları qəbul edənlər isti havada özlərini rahat soyuda bilmirlər.



Ürək dərmanları və insulin daha böyük risk yarada bilər. İstilik beta-blokerlər və diuretiklər kimi ürək dərmanlarının təsirini artıraraq, susuzlaşma və aşağı qan təzyiqi kimi problemlərə səbəb ola bilər. İnsulin isə isti havada daha sürətlə qana sorularaq qan şəkərinin kəskin düşməsinə, hipoqlikemiyaya yol aça bilər.

Stimulyatorlar maddələr mübadiləsini və bədən istiliyini artıraraq, yayda daha sürətli dehidrasiyaya və istilik vurmasına səbəb ola bilər. Bəzi hallarda istifadəçilər yorğunluğu hiss etmədikləri üçün təhlükəli halların vaxtında fərqinə varmırlar.

Həkimlər və əczaçılar dərman qəbul edən şəxslərə aşağıdakıları tövsiyə edirlər:

- Dərmanları sərin və quru yerdə saxlayın, istilikdən qoruyun;
- Bol maye qəbul edin (həkimin dediyi hallar istisna olmaqla);
- Günün ən isti saatlarında açıq havada olmaqdan çəkinin;
- Başgicəllənmə, qarışıqlıq, həddindən artıq tərləmə kimi istilik xəstəliklərinin əlamətlərinə diqqətli olun;
- Dərman qəbulunu yalnız həkimlə məsləhətləşərək dəyişdirin.

Xroniki xəstəlikləri olan şəxslər, yaşlılar və bir neçə dərmanı eyni anda qəbul edənlər üçün risk daha yüksəkdir. Yayda sağlam qalmaq üçün profilaktik tədbirlərə əməl etmək həyati əhəmiyyət daşıya bilər.

**AZƏRTAC**

## *İdman*

# İDMANI HƏYATI QƏDƏR SEVƏN ƏSGƏR



İdman komandasının hərbi qulluqçusu əsgər Adil Adilzadə 2002-ci il avqustun 21-də Bərdə rayonunun Otuzikilər kəndində anadan olub. 2008-2019-cu illərdə Bakının Ramana qəsəbəsində yerləşən 90 saylı tam orta məktəbdə təhsil alıb. Uşaqlıq illərindən idmana sonsuz sevgisi olan Adilin ömür yolu idmana bağlanıb desək heç də yanılmarıq. O, 10 yaşından idmanın cüdo və sambo növləri ilə məşğul olmağa başlayıb. Azərbaycan sambo milli komandasının üzvüdür. Yeniyetmələr, gənclər, kişilər arasında ölkə kuboku uğrunda yarışların gümüş və bürünc mükafatçısı və dəfələrlə ölkə çempionatının qalibi olub, kadetlər və gənclər arasında I MDB Oyunlarında bürünc mükafata layiq görülüb. 2023-cü ildə Qazaxıstanda kişilər arasında kuraş güləşi üzrə keçirilən beynəlxalq turnirin çempionu, həmçinin 2025-ci ilin aprel ayının 24-də kişilər arasında sambo üzrə Avropa ikincisi olub.

2025-ci ilin may ayından Daxili Qoşunların İdman komandasının atıcı-idmançısı vəzifəsində xidmət edir. 2020-2025-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil alıb. Cari il iyunun 24-də Azərbaycan Respublikasının idman ustası dərəcəsinə yiyələnib.

Artıq uzun zamandır ki, peşəkar idmanla məşğul olan Adil əsgər kimi xidmət etdiyi qurumu layiqincə təmsil etməyi bacarır. Belə ki,cari ilin iyul ayının 4-də Bakıda təşkil olunan cüdo üzrə ölkə kuboku uğrunda yarışın üçüncüsü olan hərbi qulluqçumuz iyulun 6-da kişilər arasında keçirilən sambo üzrə yarışın qalibi adını qazanıb.

Azərbaycan Respublikasının bayrağını dəfələrlə ucaldan idmançı hərbi qulluqçumuza tutduğu bu yolda ancaq uğurlar arzulayırıq.

**kapitan Nigar Ağayeva**

## *NÜMUNƏVİ XİDMƏT*

# SAVADLI QADIN HƏRBİ QULLUQÇUMUZ



Gizir Nuranə Məmmədova 1992-ci il sentyabrın 12-də Qubadlı rayonunun Xocahan kəndində doğulub. 1999-2010-cu illərdə Bakı şəhərinin Xətai rayonunda yerləşən Ələkbər Əliyev adına 204 saylı tam orta məktəbdə təhsil alıb. Orta məktəb dövrünü ömrünün ən gözəl illəri kimi xatırlayan Nuranə çalışqan şagirdlərdən biri olub. Tədris fənlərini yaxşı mənimsəyən Nuranə ən çox coğrafiya fənnini sevib. Bu fənn üzrə hətta olimpiadalara qatılıb. Həmçinin idmanın voleybol növü üzrə həvəskar səviyyədə özünü sınayıb.

2010-cu ildə orta təhsilini başa vuran kimi Azərbaycan Maliyyə-İqtisad Kollecinə qəbul olunub. 2012-ci ildə kolleci bank işi ixtisası üzrə bitirib.

Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə 2013-cü ildə Ali Hərbi Məktəbdə (hazırda Hərbi İnstitut) başlayıb. Hazırda 64412 saylı hərbi hissənin avtomobil və zirehli texnika ehtiyat hissələri anbarlarının məsul icraçısı vəzifəsindədir. O, sənədlərin düzgün tərtib edilməsinə və qorunub saxlanılmasına, eləcə də müvafiq kartoçkalarda maddi-texniki vasitələrin qeydiyyatının vaxtlı-vaxtında aparılmasına cavabdehdir. Öz funksional vəzifələrini bilir və gündəlik xidməti fəaliyyətində dəqiqliklə yerinə yetirir.

Gizir N.Məmmədova hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Kollektivdə onu fərqləndirən xüsusiyyətləri savadlı, bacarıqlı və çevik olmasıdır.

**kapitan Nigar Ağayeva**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyənin Jandarm Baş Komandanlığı növbəti ATAK helikopterini təhvil alıb



Türkiyənin Jandarm Baş Komandanlığı TUSAŞ şirkəti tərəfindən istehsal edilən 14-cü T129 ATAK hücum helikopterini təhvil alıb. "Poliqon" xəbər verir ki, bu barədə Jandarm Baş Komandanlığı məlumat yayıb.

Qeyd olunub ki, təhvil alınan "J-1924 Hürkuş" quyruq nömrəli ATAK helikopteri Jandarm Aviasiya Komandanlığının inventarına daxil edilib.

### Polşa tezliklə Cənubi Koreyadan əlavə K2 "Black Panther" tankı alacaq



Polşa Milli Müdafiə Nazirliyi Cənubi Koreyanın "Hyundai Rotem" şirkətindən əlavə K2 "Black Panther" tankı alacaq. "Poliqon" Polşa Milli Müdafiə Nazirliyinə istinadən xəbər verir ki, əlavə tankların alınması ilə bağlı müqavilə 180 ədəd K2 tankının və 80 ədəd müşayiət edən texnikanın tədarükünü, eyni zamanda bu vaxta qədər K2 tanklarına dair heç bir razılaşmada yer almayan tam paketi əhatə edəcək.

## Allah rəhmət eləsin

16075 saylı hərbi hissənin komandanlığı tibb xidməti mayoru Zaur Məsimova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000